ResearchGate

See discussions, stats, and author profiles for this publication at: https://www.researchgate.net/publication/334557920

# Eşqin qətiyyətdən doğan qətiyyətsizliyi

**Article** · July 2019

CITATIONS
0

READS
2,198

**1 author:**



Aladdin Malikov
Azerbaijan National Academy of Sciences
**204** PUBLICATIONS **55** CITATIONS

SEE PROFILE

All content following this page was uploaded by Aladdin Malikov on 19 July 2019.

The user has requested enhancement of the downloaded file.

# QOŞA QANAD

*Ədəbi almanax*

III

**Azərbaycan Milli Elmlər Akademiyası**
**Azad Həmkarlar İttifaqı**

*Azərbaycan Milli Elmlər Akademiyasının Azad Həmkarlar İttifaqı Rəyasət Heyətinin 22 may 2019-cu il tarixli 05 saylı qərarı ilə çapa tövsiyə olunmuşdur.*

*İdeya müəllifi və ön söz:* **İsa Həbibbəyli**
*akademik*

*Redaktor:* **Habil Qurbanov**
*hüquq üzrə elmlər doktoru, professor*

*Tərtibçi-redaktor:* **Zəkulla Bayramlı**
*filologiya üzrə fəlsəfə doktoru, dosent*

*Nəşriyyat redaktoru:* **Mətanət Novruzova**

*Kompüterdə düzümçü:* **Arzu Novruzova**

**QOŞA QANAD III. Şeirlər və hekayələr.**
Bakı: 2019,– 352 səh.

*Kitabda Azərbaycan Milli Elmlər Akademiyasının müxtəlif elmi-tədqiqat institutlarında çalışan əməkdaşların şeirləri və hekayələri toplanmışdır. Bu, bədii yaradıcılıqla məşğul olan alimlərimizin oxucularla üçüncü görüşüdür.*

*Kitaba AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun "Ədəbiyyatşünaslıq, plyus" Yaradıcılıq Birliyi tərəfindən rəy verilmişdir.*

**ISBN** 978-9952-8364-5-5

© AMEA AHİ, 2019



**İsa HƏBİBBƏYLİ**
*AMEA-nın vitse-prezidenti,*
Nizami Gəncəvi adına
Ədəbiyyat İnstitutunun direktoru,
*akademik*

## AKADEMİK ƏDƏBİYYAT MƏKTƏBİ

Böyük elmin və ədəbiyyatın inkişafında bu amillərindən hər birinin özünəməxsus yeri, mövqeyi və payı vardır. Ədəbiyyatla elmin qarşılıqlı münasibətlərində adətən elm əsas donorlardan biri və hərəkətverici qüvvə kimi qəbul olunur. Elmin taleyində və inkişafında isə ədəbiyyat alimin rolu alimin fantaziyasına qol-qanad verən, onun üfüqlərini açan ən mühüm vasitələrdən biri hesab edilir. Elm də, ədəbiyyat da ayrı-ayrılıqda özünün daxili potensialı hesabına inkişaf etmək imkanlarına malikdir. Lakin elm və ədəbiyyat faktorlarının qarşılıqlı əlaqəsi və üzvü sintezi həm böyük elmin, həm də böyük ədəbiyyatın fərqli inkişafına təkan verir. Ona görə də elm və ədəbiyyat nəzəri ədəbiyyatda qoşa qanad kimi səciyyələndirilir.

«Qoşa qanad»ların elmi alim idrakının aparıcılığı ilə bədii düşüncənin iştirakı əsasında yaranmış tədqiqatlardan ibarətdir. Elm faktorunun ağırlıq təşkil etməsi ilə bədii fantaziyanın «iştirakı»nın təmin edilməsi əsasında yaranmış elm normal, ənənəvi

tədqiqatlardan fərqli olub, problemin nəzəri mahiyyəti ilə həyatı əsaslarını birlikdə təqdim edən elmdir. Bədii fantaziyanın da iştirak etdiyi elm statik olmayıb, həm də bir qədər emosionallığa malikdir. Bu keyfiyyətdə olan elm cəmiyyət üçün də faydalı olmaqla bərabər, hər kəs üçün əlçatandır. Bu mənada tərkibində bədiilik elementləri olan elm təkcə ixtisas adamlarına yox, geniş mənada insanlığa və cəmiyyətə xidmət edən ümumi bir təlimdir.

Eyni zamanda, «Qoşa qanad»ların ədəbiyyatı ənənəvi bədii əsərlərdən fərqli olub, mövzunun və ya problemin həm də məntiqi təfəkkür əsasında işıqlandırılmasına xidmət edir. Burada bədiilik faktorunun üstünlük, ağırlıq təşkil etməsi ilə bir sırada elm də iştirak edir. Elmin iştirakı dedikdə biz bədii əsərlərdə təsvir edilən dövrün mühitin və hadisələrin işıqlandırılması zamanı bədii fantaziya ilə bir sırada elmi qavrayışdan, idrakdan və təxəyyüldən süzülüb keçən dərk olunmuş nəzərdə tuturuq. Elm yönlü bədii ədəbiyyat ağır çəkiyə, təmkinli yanaşmalara, məntiqi əsaslara malik olan ədəbiyyatdır. Bu, oxucunu düşündürə-düşündürə oxunan ədəbiyyatdır. Bu – həyatı və insanı sadəcə təsvir etməyib, həm də dərk etdirən ədəbiyyatdır. Elm yönlü bədii ədəbiyyat həyatı daha dərindən qavramaqda oxuculara bələdçilik edən ədəbiyyatdır. Elm ağırlıqlı ədəbiyyat intellektual ədəbi sərvətdir. Elmi baxışa malik olmaq yazıçının üstünlüyü, bədii əsərin fərqidir. Elm yönlü bədii əsərlər yazıçı istedadı ilə alim təfəkkürünün müştərək bəhrəsidir.

Klassik rus ədəbiyyatında Mixail Lomonosovun, XX əsr Azərbaycan ədəbiyyatında isə Səməd Vurğunun bədii yaradıcılığının bir istiqaməti, xalq şairi Rəsul Rzanın yaradıcılığı, xüsusən ustad sənətkarın məşhur “Rənglər” şeir silsiləsi «Qoşa qanad»larda elmin və ədəbiyyatın qarşılıqlı əlaqədə iştirakının uğurlu nəticələrini özündə əks etdirir. Mixail Lomonosovun odaları cəmiyyətin meafizik dərkinin poetik ifadəsidir. Səməd Vurğunun «Bakının dastanı» poemasını elmi mahiyyətinə görə «Bakının tarixi» kimi də başa düşmək mümkündür. Rəsul Rzanın “Rənglər” şeirləri elmi idrakla yazılmış poetik nümunələrdir.

Bu əsərlərdə elmi qavrayış bədii düşüncənin tərkibində olub, onu tamamlayır və dərinləşdirir. Müasir mərhələdə xalq yazıçısı Kamal Abdullanın «Yarımçıq əlyazma» romanı elmlə ədəbiyyatın, idrakla istedadın qarşılıqlı əlaqəsinin harmoniyası əsasında yaradılmış uğurlu bədii əsərdir. Biologiya üzrə fəlsəfə doktoru, dosent Sadıq Qarayevin elm adamlarının həyatına həsr olunmuş "Sahilsiz təzadlar" (2014) və "Sahibsiz kölgələr" (2017) romanları onun paralel dünya, utopik cəmiyyət və sair elmi anlayışa daha çox aid olan məsələlər haqqında, geniş və sanballı bədii söz deməsinə şərait yaratmışdır.

Bütövlükdə isə Azərbaycanda elm yönlü ədəbiyyatın böyük ənənəsi və tanınmış ədəbi simaları vardır. Akademiklər: kimyaçı Yusif Məmmədəliyev, tarixçi Ziya Bünyadov, geoloq Şəfaət Mehdiyev, dilçi Kamal Abdulla, etnoqraf Teymur Bünyadov, kimyaçı Vaqif Abbasov, müxbir üzv Xudu Məmmədov, elmlər doktorları, riyaziyyatçı Hamlet İsaxanlı, həkim Paşa Qəlbinur, geoloqlar Oqtay Rza və Hikmət Mahmud, texniki elmlər üzrə Elçin İsgəndərzadə, filosof Əhməd Qəşəmoğlu, iqtisadçı İsa Alıyev, fiziklər Hidayət Nur, Knyaz Məmmədov, dəqiq elmlər və təbiət elmləri üzrə onlarla fəlsəfə doktorları ölkəmizdə ədəbiyyatın inkişafında xidmətləri olan yaradıcı ziyalılar kimi elmi-ədəbi mühitdə özlərinə məxsus iz salmışlar. Bu qəbildən olub, bədii yaradıcılıqla ardıcıl məşğul olan elm adamları Milli Elmlər Akademiyasında, yaxud ali təhsil ocaqlarında çalışdıqları üçün yox, əsərlərində elm faktorundan yaradıcı şəkildə istifadə etdiklərinə görə akademik ədəbiyyatın yaradıcıları kimi qəbul olunurlar.

Bundan başqa, son illərdə, daha doğrusu 2014-cü ildən Azərbaycan Milli Elmlər Akademiyasında ardıcıl olaraq «Fizika və lirika» konfranslarının keçirilməsi ədəbiyyatın taleyində elmin və əksinə, elmin inkişafında ədəbiyyatın iştirakına diqqəti artırmışdır. «Fizika və lirika» konfranslarının 2018-ci ildə beynəlxalq miqyasda təşkili, müzakirələrdə Azərbaycan alimləri və yazıçıları ilə birlikdə Müstəqil Dövlətlər Birliyi ölkələrinin tanınmış alimlərinin də iştirak etməsi «Qoşa qanad»lardan hər ikisi-

nin rolunu və əhəmiyyətinə diqqətin cəlb edilməsinə gur işıq salmışdır. Rusiya Elmlər Akademiyası Maksim Qorki adına Dünya ədəbiyyatı İnstitutundan institutun direktoru, professor Vadim Polonskinin rəhbərlik etdiyi tanınmış ədəbiyyatşünaslar heyətinin: Andrey Kofman, Andrey Korovin, M.N.Siçevanın, Kazbek Sultanovun, A.İ.Çaqinin beynəlxalq elmi konfransda fəal iştirakı, Belarusdan, İvan Saverçenko, İqor Kopilov, Özbəkistandan akademik Naim Kərimov, Kazaxıstandan Svetlana Arianyevanın, Gürcüstandan İrma Ratiani, Maka Elvakidze, Moldovadan Lilya Porubinin, Tatarıstandan Daniya Zaqitulina, Kim Minulin, Udmurtiyadan Aleksey Arzamasovun, fərqli baxışları ədəbiyyatda və elmdə «Qoşa qanad»ların hər iki qanadını real təsəvvür etməyə imkan yaratmışdır.

Azərbaycan ədəbiyyatı və elminin təcrübəsi əsasında artıq elmi və bədii düşüncədə fərqli yanaşmaların meydana çıxdığını müşahidə etmək mümkündür. «Qoşa qanad»lara diqqətin artdığı hazırkı mərhələdə Azərbaycan ədəbiyyatında tədricən Akademik məktəbin yaranmaqda olduğu müşahidə edilməkdədir. Xüsusən, fundamental və ya tətbiqi elm sahələri ilə məşğul olan alimlərin bədii yaradıcılığındakı cəmiyyətə və insana rasional baxış Azərbaycan akademik ədəbiyyatının təzahürlərini özündə əks etdirir. Eyni zamanda, humanitar və ictimai elm sahələri ilə məşğul olan, ədəbiyyata yaxın elm adamlarının, ədəbiyyatşünasların, folklorşünasların, sənətşünasların, dilçilərin, filosofların bədii yaradıcılığındakı elmi qavrayış, tarixilik, informasiya yükü və sair amillər onların əsərlərini ənənəvi ədəbi əsərlərdən fərqləndirən keyfiyyətlər kimi nəzərə çarpır. Bu da humanitar istiqamətdə Azərbaycan akademik ədəbiyyatın doğulmaqda olduğunu nümayiş etdirir.

Azərbaycan akademik ədəbiyyatı yeni anlayış olub, elmlə bədii ədəbiyyatın qarşılıqlı əlaqəsi və sintezindən yaranan fərqli ədəbiyyatı özündə cəmləşdirir. Obrazlı şəkildə buna «Qoşa qanad» ədəbiyyatı da demək mümkündür. Elmdə isə bu tipli ədəbiyyatın dəqiq nəzəri təyinatı Akademizm ədəbi cərəyanı anlayışını diqqət mərkəzinə çəkməyi tələb edir. Bakıda, Şamaxıda Ast-

rofizika Rəsədxanasında və Dubnada (Rusiya) Beynəlxalq Nüvə Tədqiqatları İnstitutunda təşkil olunan «Fizika və lirika» konfransları, ardıcıl olaraq həyata keçirilən «Qoşa qanad» layihəsi Azərbaycanda akademik ədəbiyyatın meydana gəlməsini şərtləndirmişdir. Elmi-ədəbi mühitdə alim təfəkkürlü yazıçı tipi müşahidə olunmaqdadır. İndiki mərhələdə elm yönlü ədəbiyyat əsasında Azərbaycan ədəbiyyatında intellektual ədəbiyyatın yaradılmasına cəlbedici bir maraq yaranmışdır. Müəyyən ədəbi ənənəsi olan, intellektual şeir inkişaf edərək kökləri "Kitabi-Dədə Qorud" dastanlarına bağlı olan yeni tipli intellektual ədəbiyyata çevrilmişdir. İdrakla ilhamın sintezindən doğulan İntellektual ədəbiyyat Azərbaycan akademik ədəbiyyatının mühüm göstəricisi, əsas ədəbi simasıdır. Bütün bunlar Azərbaycanda akademik ədəbiyyatın, yaxud Akademizm ədəbi cərəyanının əsas konturlarıdır. Artıq üçüncü kitabları nəşr olunan «Qoşa qanad» layihəsinin nəşrlərini: «Qoşa qanad» və "Plyus bədii yaradıcılıq" almanaxlarını təhlil etməklə Azərbaycan akademik ədəbiyyatının (Akademizm ədəbi cərəyanının – İ.H.) ana xətlərini, əsas konturlarını görmək və göstərmək mümkündür.

Fikrimizcə, artıq Azərbaycan akademik ədəbiyyat məktəbinin mətbu orqanını, il ərzində çap olunan rüblük elmi-ədəbi jurnalını yaratmaq da vaxtı çatmış məsələdir.

Formalaşma prosesində olan akademik ədəbiyyat məktəbi Azərbaycan ədəbi cərəyanlarının sırasında yeni ünvandır. İnanırıq ki, elmi-nəzəri fikir bu fərqli məktəbin mahiyyətinin şərh edilməsinin fərqində olacaqdır...

**28 iyun 2019-cu il**



**Əlləddin MƏLİKOV**
AMEA Elm Tarixi İnstitutu
*Fəlsəfə üzrə elmlər doktoru, dosent*
*Azərbaycan İlahiyyat İnstitutunun dosenti*

## EŞQİN QƏTİYYƏTDƏN DOĞAN QƏTİYYƏTSİZLİYİ

Bütün bəhanələrim eşqdəndir.
Mən susuram, bütün nəğmələr ondandır.
Gəmimin həm tufanının, həm sahilinin eşqdən olan
dəryadan qorxusu yoxdur.
**(Ə.H.İbtihac)**

O ilk görüşü heç vaxt unuda bilmirəm. Bilmirəm M.Haydegger idim, Freyburg Universitetində fəlsəfə dərsi deyərkən birdən gözüm Hanaya sataşdı, ya Cəlal idim avtobusda Tehrandan Şiraza gedərkən Simini gördüm. Yox, yox, daha sonralar idi. Mən Fəlsəfə İnstitutunda oxuyurdum. Günortadan sonra soyuq qış günlərinin biri idi. Bütün həyatım boyu sevincimə, kədərimə və çaşqınlığıma səbəb olan birisi həyatıma girdi və bir daha ayrılmadı. Bizim sonuncu görüşümüzdən illər keçir. Bu müddət ərzində çətinliklə də olsa, onu unutmağa çalışmışam. Amma etiraf edirəm ki, bütün bu illərdə o, mənim şüur

və qəlbimin bir parçası olmuşdur. Həyatım boyu onun məndə yaşayacağından da əminəm. Qarlı-çovğunlu qış günü, universitetdə semestrin ilk günü idi. Birdən gözüm ona sataşdı. Mənim qəlbimə özümdən də xəbərsiz girdi. O vaxtdan nə az, nə çox, düz iyirmi il keçir. Gözümü yumub dəqiqliklə o anı olduğu kimi təsəvvür edə bilirəm.

Fəlsəfə kabinetində taxta kürsülərdə oturmuşduq. Müəllim ekzistensializm fəlsəfəsində insanın özgələşmə prosesinin necəliyindən danışırdı. Kabinetdə antik filosoflardan tutmuş orta əsr filosoflarınadək bir çoxunun şəkilləri vardı. O rəsmlərdən biri sanki qəmli baxışlarla səmaya baxır və qara bəxtindən Allaha şikayət edirdi. Eşikdə qar yağırdı. Kabinetə təxirlə girən tələbələrin saçları arasında dolu qar dənəciklərini müşahidə edirdik. Fəlsəfə kabineti yerləşən bina təxminən otuz ildən çox idi tikilmişdi. O zaman tikilən bir çox binalar kimi, heç bir cəlbedici xüsusiyyətə, nə müasir, nə də ənənəvi memarlığa malik deyildi. Qapıların materialı çox möhkəm rus taxtaları olduğundan qapı açılıb bağlananda cırıldayırdı və bu da tələbələrin diqqətinin dağılması ilə nəticələnirdi. Müəllim sanki ümidsiz və məyus tonla danışırdı. Mən öz xəyal aləmimdə insanın ölümdən sonrakı həyatı barədə düşünürdüm. Yenidən qapı cırıldadı. Qapının açılıb-bağlanma səsi ətrafı bürüdü. Bu səsə mən gözucu qapıya baxdım və elə bilirəm bütün tələbələr də qapıya baxdılar. Yeni tələbə idi. Bir anlıq qapının önündə dayandı. Kabineti səhv salmadığına əmin olduqdan sonra müəllimə baxdı, təbəssüm etdi. Əli ilə icazə istədi və stulların birində əyləşdi. Bir anlıq kabinetə sükut çökdü. Sanıram müəllim də bir neçə anlıq sükut etdi, sonra dərsi izah etməyə başladı. Amma mən onu gördükdən sonra qəlbim həyəcanla döyünməyə başladı. Qulaqlarım elə guruldayırdı ki, müəllimin nə söylədiyini ayırd edə bilmirdim.

Məndən bir-iki parta aralı oturmuşdu. Əgər başımı bir balaca fırlatsaydım, onu lap yaxşıca görə bilərdim. Onun ağır-sənginliyi, ucaboyu, incə beli, xurmayı saçları, saf alnı, ala gözləri, nazik qaşları, gözləri üzərinə burulmuş kirpikləri, alma kimi yanaqları, gül kimi açılan dodaqları, fındıq burnu, çənə tər-

kibi və şirin təbəssümü elə bir mütənasib uyğunluğa malik idi ki, insanı özünə valeh edirdi. Ay kimi işıq saçan siması daha cazibədar və cəlbedici görünürdü. Siması bütövlükdə saf və təmiz bir pərini canlandırırdı. Müəllimin sözlərinə daha diqqətlə qulaq asmaq istədikdə gözləri özünəməxsus bir forma alırdı. Bu da onun özünəməxsus gözəlliyini qat-qat artırırdı. Mənə dərd çəkməyə heç bir taqəti olmayan körpəni xatırladırdı. Spesifik bir vəziyyətlə bir əlini çənəsinin altına qoyub, digər əli ilə müəllimin izahlarını qeyd edirdi. Müəllim aradabir lətifə danışanda, o da gülürdü. O gülüşlər simasında unudulmaz cizgilər yaradırdı. Gülüşü ilə sanki şən və zarafatcıl istehzaya bürünürdü. Elə bil ki, ilk andan ona müraciət edənə deyirdi: "Bilirəm sənə güvənmək olmaz".

Saatın necə keçdiyini bilmədim. Tələbələrin səs küyündən dərsin bitdiyini hiss etdim. Amma o doxsan dəqiqə mənim həyatımın doxsan ilinə dəyərdi. Fikrimcə, xoşbəxtlik saniyələr və dəqiqələr çəksə də, barəsindəki xatirələr bir ömür davam edir. O duyğularımı qələmə almaq, sözə çevirmək hətta dilə gətirmək çox çətindir. Bəlkə də heç mümkün deyil. Ona baxırdım. Yerindən qalxdı. Sinifdə bir an belə dayanmadan çıxdı. Üfüqün gözlərimə icazə verdiyi qədər arxadan onu izlədim. Başqa tələbələrlə əlaqə yaratmaq üçün heç bir cəhd göstərmədi. O qədər gənc qız və oğlan arasından dost tapmağa səy etməməsi, başqalarına təhqir və hörmətsizlik etmədən diqqətsizliyi onu çox əsrarəngiz göstərirdi.

O günü bütünlüklə ondan beynimdə formalaşan təsəvvürü düşünürdüm. Həyatda sadəcə bir arzum vardı. O da onun boynuna sarılıb üzündən öpmək idi. Bilirsiz sevginin ən çətin, ən ağır məqamı hansıdır? Onu görüb, aşiq olduqdan sonradır. Universitetdən evə qayıdanda bütün dostlar və tanışlardan ayrıldıqdan sonradır. Sanki sənə doğma və əziz bir adamın yoxluğunu duyursan. Bax, məncə, o gecə ən çətin gecədir. Onun kabinetə girişi, kürsüdə oturuşu, yol yerişi, sanki bir kino kimi gözlərimin önündən keçirdi. Mənim həyatımda başqa insana nisbət bənzəri və analoqu olmayan bir hiss yaranmışdı. Gündə-

lik təşvişli, iztirablı və nigaran həyatda, yoxluqdan bir nəfər mənim həyatımda peyda olmuşdu. Əhəmiyyətlisi bu idi ki, məni özünə heyran və valeh etmişdi. Həqiqətən mənim üçün gözlənilməz olmuşdu. Sanki kimsə mənə qəfil basqın etmişdi. O gecəni sübhədək oyaq qaldım desəm, yanılmaram. Elə hiss edirdim melanxoliya xəstəliyinə düçar olmuşam. Axı dahi İbn Sina eşqə psixi bir xəstəlik kimi yanaşaraq, onun müalicə yollarını göstərmişdir. İbn Sinanın melanxoliyaya bənzər bildiyi eşqi öz halıma uyğun görürdüm. O, eşqi "bütünlüklə insanın öz fikir və düşüncəsini, xəyallara, təsəvvürlərə və şəkillərə qərq etmiş vəziyyəti kimi" tərif edirmiş. Bilmirəm onda məni ilk baxışdan özünə heyran edəcək nə var idi? Onda nə var idi ki, illərin müəllimini belə bir neçə anlıq sükuta dalmağa məcbur etdi? Bilmirəm onun yumşaq təbiətinə vurulmuşdum, yoxsa xarici gözəlliyinə? Bilmirəm onun səliqəli geyiminə valeh olmuşdum, ya ziyalı bir ailəyə mənsub olmasına? Bəlkə alnının üstünə səpələnən qara saçlarına? Bəlkə də mətanət əks etdirən qüruruna? Sonralar bu xüsusiyyətin onda olmasını ilk anlardan tanımaqda nə qədər məharətli olduğumu anladım. Bilmirəm bəlkə qələmi kağız üzərində rəqs etdirən uzun və nazik barmaqlarına? Ya gözəl və ala gözlərinə? Allahın min bir qələmlə hazırlayıb yaratdığı bu cür pərinin, belə gözəl çöhrənin yanından kim fərqinə varmadan keçə bilərdi ki?

Daha aşiq olmağım gün kimi aydın idi. Amma bu fenomendən doğru dürüst bir anlayışım yox idi. Onu həyatımda heç bir hadisəyə bənzədə bilmirdim. Onu heç bir səbəbə bağlaya bilmirdim. Şair demişkən, "eşq-elə bir sirdir ki, gətirmək olmur dilə, lakin örtmək də olmayır onu min pərdə ilə". Əlbəttə ki, eşq barəsində çoxlu tənəli sözlər eşitmişdim. Bəziləri onu orqanizmdə çatışmayan bir sıra vitaminlərlə, digərləri onu gənclik dövründə orqanizmdə kimyəvi molekulların və hormonların azalıb çoxalması ilə əlaqələndirirdilər. Bizdən elə şeylərə daha ciddi yanaşmamağımızı istəyirdilər. Deyirdilər cavanlıq keçəcək, bu mərhələnin həyəcanlı və ehtiraslı eşqlərindən, bir neçə gülməli xatirələrindən başqa, bir şey yadda qalmayacaq. Am-

ma mən bu qədər həyəcanlı və təlatümlü eşqlərin hamısının yalan olmasına heç inana bilmirdim. Üstəlik, aşiqlər tarixində, dərvişlərin əhvalatında oxumuşdum ki, onlar belə sonda, qoca vaxtlarında, zahidliyin və elmin zirvəsində olduqları bir vaxtda "bir gözəlin nazlı işvələri"nin felinə aldanıb uymuşlar. Burada dillər əzbəri olmuş digərlərindən uzun-uzadı yazmağa yox, əksinə, şəxsi təcrübə olaraq həyatımın ikinci yarısını yaşayan mən də, nazlı qəmzəli gözlər görəndə özümü bildirməməyə çalışıram.

Belə-belə günlər keçirdi. Mənim ona qarşı olan məftunluğum hər gün artırdı. Aşiqlər fəsli olan bahar fəsli də gəlib çatmışdı. Amma mən yenə də özümdə onunla söhbət etmək cəsarətini tapa bilmirdim. Əlbəttə, onunla danışmağa cəsarətim olmadığından özümü qınayırdım. Hamı ilə ünsiyyət qurmaqda mahir olan mən onunla söhbət etmək üçün iki-üç metrdən artıq ona yaxınlaşa bilmirdim. Yaxınlaşıb onu bu bahar günlərinin birində parka dəvət etmək istəyirdim. Ona ən alovlu aşiqlərin aşiqanə şerlərini oxumaq istəyirdim. Onda mənə qarşı hansı duyğuların olduğunu, öyrənmək istəyirdim. Məni sevib-semədiyini bilmək istəyirdim. Ümumiyyətlə, mənim kimi bir sinif yoldaşının olmasından xəbəri olub-olmamasını soruşmaq istəyirdim. Ona anlatmaq istəyirdim ki, sakitliyi ilə məni özünə səsləməyindən xəbəri varmı? Lakin onunla üz-üzə, göz-gözə gəlməkdən, onunla danışarkən dilimin topuq vurmasından və dizlərimin əsməsindən qorxurdum.

Cürət və cəsarət tapdığım təkcə şey ona baxmaq idi. Təkcə baxışlarıma pəhriz edə bilmirdim. Sanki ona baxmaqdan həzz alırdım. Cəsarətim yalnız ona baxmağa çatırdı. Xüsusi heyranlıq içində ona aid hər şeyi bilməyə can atırdım. Özümdən asılı olmayaraq, onun davranışlarına göz qoyurdum. Siması dəyişəndə üzünün cizgilərinə diqqət yetirirdim. Bir sözlə, onun hər hərəkəti ilə maraqlanırdım. Başqaları ilə qarşılaşanda fövqəladə hörmət doğururdu. Tək olanda çox razı görünürdü. Əminliklə deyə bilərəm ki, gəlişi ilə başqalarını təsir altına salırdı. O növ (tip) insanlardan idi ki, bir topluya daxil olanda, toplu sü-

kuta qərq olurdu. Təqribən hamı özünü yığışdırır və onun yolundan çəkilirdilər. Arabir sinifdə olan müzakirələrə qatılırdı. Fikirini özündən razi bir ifadə ilə bildirər, amma özünü üstün göstərmək və ya hansısa imtiyaz almaq niyyəti ilə etməzdi. Tələbələrə qaynayıb qarışmırdı, təklikdən də qorxmurdu. Bir neçə tələbə onunla söhbət etmək üçün yaman çırpınırdı. Amma o, onlarla bir neçə dəqiqə söhbət edər, gülərüzlə cavablandırardı. Bəzən elə hiss edirdim ki, onlarla rəqabətdə geridə qalmışam. Axı mən də onunla deyib, gülmək istəyirdim. Lakin sabah görürdüm onların kənarından da fərqinə varmadan keçir. Məsələni sadə bir əl yelləmək və ya qısa kef-əhval soruşmaqla bitirirdi. Amma gecələri onun xatirələri ilə səhər açan mən niyə qarşısına çıxa bilmirdim? Niyə onun ürəyini oğurlaya bilmirdim? Nədən qorxduğumu belə bilmirdim? "Yaşıl işıqların" yanmasına nə mane olurdu? Bu qədər qətiyyətliykən bu qətiyyətsizlik, tərəddüd, nigarançılıq, qorxu və bəzən iztirab hissi nədən doğurdu?

Sonralar fikirləşəndə gördüm ki, hardasa dini bağlılığım da bu ülvi hissə mane olurmuş. Sanki səmavi, uca və ülvi mərtəbələrə çatmağa bu ilahi hissi mane olacaqmış. Amma bilməmişəm ki, hətta Uca yaradan qarşısında sevgisiz kütlələrin kiçik arzularına yer yoxdur. Ümumiyyətlə, məcazi sevgilərin çarəsizlikdən başqa, heç bir nəsibləri yoxdur. Doğrusu, dini inanclarımı tez bir şəkildə həll edib yoluna qoya bildim. Ürfan ədəbiyyatı ilə azacıq da olsa, tanış idim. Eşqin Nizami, Füzuli, Hafiz, Sədi, Rumi, Cami, Əttar və bu kimi şairlərin şeirində nə qədər göz qamaşdıran və işıq saçan parıltıların olmasını bilirdim. Bu şairlərin bəzi şeirlərini insan eşqindən başqa, heç bir yerə yozmaq olmaz. Bu şeirləri oxuyanda sanki şəxsi təcrübəmin sədalarını eşidirdim. Elə bu şairlərin vasitəsi ilə başa düşdüm ki, "eşq sonda bizi o biri tərəfə yönəldəcək". İlk dəfə o əsərlərin birində bu rəvayəti oxudum: "Hər kəs aşiq ola-ola, öz sirrini gizlətsə və ölsə şəhid sayılar". Elə o vaxtlar bu sirli rəvayəti söyləyənin özünün də aşiq olduğunu anladım. O həzrət də içində çiçəklər açdıqda "Kəllimini ya hümeyra" deyərmiş.

O zamanlar M.Buberin "I and You" (Mən və Sən) əsəri ilə

tanış oldum. Kitabı oxumağa başladım. Doğrusu, əsər o qədər də asan əsər deyildi. Amma yenə də əsərin məğzini başa düşmək olurdu. O iddia edirdi: "İnsanla Allah arasındakı əlaqə, birinci növbədə iki insan arasında baş verir və insanla insan arasında olan qarşılıqlı əlaqənin içində formalaşır" və insanın gündəlik həyatında öz əksini tapır. Ümumiyyətlə, mən o zamanlar dinə olan meyilin də sevgi formasında olmasının zəruriliyini anladım. Hafiz Şirazinin eşq barəsindəki bu beyti bütün dini nigarançılığıma son qoydu: "Ey Tanrı meyxanəsi qapısında təsbihlə zikr deyən mələk! Bil ki, orada eşq və sevgi xarakteri olanı içəri alırlar".

Kaş ki, bütün vahimələrim dini təşvişlərim kimi olaydı. Belə sadəliklə onları həll edəydim. Doğrusu, Hafizin söylədiyi ilk eşqin asanlığından sonra meydana çıxan "problemlərdən" məqsədinin nə olduğunu bilmirdim. Lakin öz qədərimcə anlayırdım ki, bu təcrübənin çoxlu naməlum qorxuları, qəhərləri, təşvişləri, iztirabları və həyəcanları olacaqdır. Amma o qaranlıq içdən gələn bütün şəkk və şübhələrə qələbə çalacağımı daxilimdə hiss edirdim. Hər şeydən çox bəşəri hisslərin qərarsızlıqlarından sarsılırdım. Onunla əlaqə yaradaraq ünsiyyətdə olmağa özümü möhtac görürdüm. Lakin digər tərəfdən ona bağlanmaqdan da qorxurdum. Bu cür daha çox ecazkar və sirli görünürdü. Bu bağlılığın onun "təkliyinə" xələl gətirməsindən də qorxurdum. Bilmirəm, bəlkə onu daşımama taqətim olmayacağından vahimələnirdim, bəlkə də onun yükünün ağırlığının mənim çiyinlərimə düşməsindən qorxurdum. Şirin yuxularım arada bir kabusa dönürdü. Sanki məni qara basırdı. Mən gerçək həyatda da belə hadisələrin baş verəcəyindən dəhşətlənirdim. Doğrusu təkbaşına bu ikili emosiyaları təhlil və analiz etmək çox çətin idi. Deyirlər ağıl-ağıldan üstündür. Kimdənsə məsləhət almağı hiss edirdim. Amma məsləhət alacaq kimsəni tapmırdım. Bir cəmiyyətdə yaşayırdım ki, şairləri sevmək, sevilmək və aşiqlik barədə həmişə xoş xəyallar doğuran poeziya nümunələri yaradıblar, amma eyni halda eşq məsələsini gerçək aləmdə həll etməkdən aciz olublar. Bu məsələnin həllini fikir və biliyin öhdəsindən xa-

ric biliblər. Heç vaxt insan qəlbinin bu dəyərli və təlatümlü oyunu barədə tam ciddi bir müzakirə və dialoq eşitməmişdim. Bilmirəm, abır və həya mane olurdu ya başqa şeylər, amma "eşq təcrübəsindən" danışan kimsəni tapa bilmirdim. Onu həqiqətən çox istəyirdim. Amma onun məni istəməsindən və bu eşqin acı sonluğundan və nəhayət onu sevginin zirvəsində itirməkdən çox qorxurdum. Onu özümün bir parçasına çevirmək istəyirdim, lakin onun bu cür dəbdəbəli və təmtəraqlı vəziyyətinə heç bir xələlin gəlməsini də istəmirdim. Əbədi olaraq ondan uzaqlaşmadan ona yaxın olmaq istəyirdim.

Bu həyəcanların fonunda, əlbəttə, ürəyin özünəməxsus sübutları vardı və öz yolu ilə addımlayırdı. O, bu həyəcan və nigarançılıqların aradan qalxmasını gözləmirdi. Gecələr gec yatmağıma rəğmən, heç saatı müəyyən bir vaxta qurmadan da, vaxtında yuxudan ayılırdım. Demək olar ki, dostların, tanışların, qohum-qonşuların qayğısı gündüzdən təkliyimi unutdururdusa da, axşamlar çox vaxt ürəyim hövl edəndə ağlaya-ağlaya yatırdım. Deyir adamın gərək naxışı gətirə!... Mən özümdən bixəbər çöldə-bayırda, daha doğrusu universitetdə necə ona rast gəldimsə, birdən məndə belə bir fikir formalaşdı ki, elə bir-birimizdən ötrü gəlmişik bu dünyaya. Ona görə mənim həyatım universitetdən ibarət olmuşdu. Hər bəhanə ilə özümü ora çatdırırdım. Dərsim olmayan saatları daha çox Universitetin kitabxanasında keçirirdim. Onun diqqətini özümə cəlb etməkdə qərarlıydım. "Dilini yox, hünərini göstər" ifadəsinə əsasən, nə isə qeyri-adi görünməkdən xoşlanırdım. Bunun üçündə dərs saatlarında müəllimlərlə sual-cavab etməkdən daha yaxşı nə ola bilərdi. Dərsdə qəribə və qeyri adi fikirlər yürüdürdüm. Ədəbiyyat dərsində N.Gəncəvini tənqid edirdim ki, o, həddən ziyadə romantik şairdir və romantizmin dövrü keçib. Bir sıra musiqiçiləri qınayırdım ki, səsləri insana daha lazım olan zövqü vermir. Vudi Alleni şit və mənasız komedian adlandırırdım. Özümü göstərmək üçün, yerli-yersiz harada lazım gəlirdisə, özümü göstərirdim. Amma doğrusu hərəkətlərimin uşaqlara məxsus gözə çarpmasından da qorxurdum. Bir dəfə öz bəxtimi ingilis dili

dərsində sınamaq niyyətinə düşdüm. Məktəb illərindən xüsusi ingilis dili dərslərinə gedirdim. İngilis dilində bir neçə romanda oxumuşdum. Zənnimcə bu dildə danışmağı da bacarırdım. Günlərin birində müəllim fəlsəfi bir nəzəriyyəni ingilis dilində danışıb, təhlil edirdi. Mən nəzəriyyəyə tam diqqət etmədən, müəllimin sözünü kəsib, öncədən beynimdə hazırladığım bir neçə sualı soruşdum. Gün kimi aydın idi ki, verdiyim sualın müəllimin danışığı ilə heç bir əlaqəsi yox idi. Buna görə o məndən verdiyim sualı daha ətraflı şəkildə izah etməyimi istədi. Sonrakı izahlarım bildirdi ki, sanki sinifdə olmamışam. Müəllimin dediklərindəndə heç bir şeyi düzgün anlamamışam. Müəllim azacıq əsəbləşdi. Mənə dedi: ümumiyyətlə dərsin mövzusu nədir? Mənim ingilis dili səviyyəm yüksək olduğundan, o həyəcan və tələskənliklə elə bir cavab verdim ki, məsələni bir azda ciddi müstəviyə çəkdi. Bu səbəbdən yerdən pıqqıldayıb gülənlər çox oldu. Tələbələrin gülüş səs-sədaları sinfi bürüdü. Gülüş səsi ətrafa daha çox yayıldı. Gözlərimi qıyıb, sinfə bir göz gəzdirdim. Gülməyən bir neçə nəfər də var idi. Onun gülməyənlər arasında olduğundan əmin idim. Eləydi, o gülmürdü. Yalnız başını arxaya çevirib məni süzürdü. Ürəyimdə isə deyirdim: "Yaman günün ömrü az olar".

Məndən soruşacaqsız axır bu qorxu hisslərinə nə vaxt qalib gəldin? Düzünü istəsəniz heç vaxt. Hətta indinin özündə belə o anları fikirləşəndə, elə hiss edirəm ki, o hisslərə qalib gəlmək olmaz. İki insanın bir-birində həllolunmaz cütlüyündən doğan eşqin faciəvi taleyindən qaçınmaq mümkün deyil. Bilirik ki, hər bir eşqdə ən azı iki şəxs var. Amma onların müxtəlif mövqelərdə hansı rolu ifa edəcəkləri naməlumdur. Həmçinin, onların hər birinin digərinin həyatında və onun bərabərində iştirakının necəliyi də müəyyən deyil. Qarşıda olan örtülü, gizli və sirlidir. Ona nə proqnoz vermək olur, nə də qarşısın alaraq, cilovlamaq olur. Bəzən ona hörmət edirsən, qərarlarını müdafiə edirsən, onunla qarşı-qarşıya gəlmirsən, müxalifət etmirsən, nəbada məcbur olub azadlığı ilə sənin eşqin arasında qalıb, birini seçsin. Təkcə aşiqanə səbrimlə onu eşqdən intizarı olan sığına-

cağa çatdırmağıma ümidvar idim. Bir də onda gözünü açırsan ki, həm özünü həm şəxsiyyətini onda fəna edərək, əbədiləşdirmisən. Bəzən istəyirsən onunla sənin aranda olan maneələri, ayrılıqları aradan götürəsən, pərdələri qaldırasan, bunu məşuqənin özündən savayı, asan icra edə biləcək kimsə varmı? Onu bir dəfəlik özünə məxsus edəsən. Özünün ayrılmaz hissən edəsən, sən bəyəndiyin hər şeyi, o da bəyənsin, xoşalmadığın şeydən onun da xoşu gəlməsin. Bir sözlə, öz fərdiyyətindən irəli çıxsın və səninlə birləşsin. Sənə qovuşsun. İqtidar, yiyələnmək və mənimsəmək, eşqlə qapı qonşular sayılırlar. Lakin gələcək bu ümid verən duyğularda naməlum və məchuldur. Eşq vadisinə qədəm qoyan şəxs, həqiqətdə özünü sonu bilinməyən döyüş meydanında iştirak etməyə hazırlayır. Eşq bir sözlə, F.Bekon demişkən: "özünü təqdirə həvalə etmək və həyatın axarına buraxmaqdır". Eşq xarici görünüşdən əlavə ürəkdə də dənizlər qədər səxavətli olmaqdır. O gün, mən də eşq vadisinə düşmüşdüm. Sanki eşqi eşitməyə yox, duymağa qərar vermişdim. Doğrusu, dəqiq bilmirəm nə vaxt idi, amma bir müddətdən sonra daha nəzəri nigarançılıqlarımın həllini gözləmək ümidimi itirdim. Bu sualların hamısı mənim üçün öz əhəmiyyətlərini itirdi. Roman yazan bir yazıçıya bənzəyirdim ki, öz romanının qəhrəmanını tapıb, daha ondan sonra qəhrəman idi ki, hamını, o cümlədən roman yazanı, öz arxasınca aparırdı. Mənim üçün ən xoş an S.Sepehri demişkən, "ona baxmaq idi". Onun baxışlarını izləmək, eşq macərasını yeniləmək və eşqin hər an yenilənən anlarına tamaşa etmək idi. Buna görə də, sanki M.Füzulinin nəsihətinə qulaq asıb, ağılı tamamilə azad edib kənarlaşdırmışdım. Bəlkə də, o, biz aşiqlərin halını təsvir edərək, demişdi: "Eşqdən ağılı soruşdum. Dedi: uzaqdır, daha ondan fərman almıram".

Beləliklə, nigaran bir halda idim, birdən elə bil içimdə elektrik lampası işıq verməyə başladı. Elə bil o dərinlikdə kimsə oturmuşdu və mənim hər bir sualıma cavab verirdi. Mövcud şəkk və şübhələrimi bir-bir aradan qaldırırdı. Mənə deyirdi qorxma. Bu qədər yubanma, ləngimə. Önün ol! Aşiqlik cəsarətni göstər. Daxili sıxıntılarını və müzakirələrini bir kənara qoy,

eşqi tanımaq yox, dadmaq, təcrübə etmək, lazımdır. Eşqi tanımadan da təcrübə etmək və duymaq olar. Lakin dadandan, duyandan və təcrübə edəndən sonra tanımaq olar. Sənaidən öyrənmək lazımdır. O deyirdi: "Ey yanmış və yandırmışdan xəbərsiz. Eşq öyrənilməli yox, duyulmalıdır".

Ömrünün bitməyindən qorx. Kainatda düşünülmüş və məqsədli rolunu oynaya bilməməyindən qorx. Xoşbəxtliyinin o nadir anlarını təcrübə etməmək və yaşamamaqdan qorx. Sanki birisi mənə deyirdi: Eşqinin səsinin yayılmasından, özünü qorxutma. Qoy hamı bilsin ki, müqəddəs eşqlər əsrində, bu boyda böyük olan dünya, bütün o uca amalları ilə mənim üçün bu universitet qədər kiçilib. Qoy hamı bilsin ki, "eşqin incəliklərindən canım çox incəldi". Çarəsiz Doktor Jivaqo! Yorğun və xəstə Doktor Jivaqo! Sən ki, çarın sarayına gedə bilmirdin, Sənin ki heç Stalin hakimiyyətində də yerin yox idi, aşiqliyin rüsvaylığından niyə qorxurdun? Nə vaxta qədər qatar dayanacağında gözləmək istəyirsən? Lara daha qatarda deyil. Hər iki hakimiyyət dövründə ali rütbəsi olan fürsətçi rəqib, onu səndən oğurlayaraq qaçıracaq. Gec tərpəndin və ülvi eşqin bolşeviklərin ayaqları altında tapdalandı. Daha bu dəfə ləngimə. Səni aşiq səsləməkdən qorxma. Qoy hamı bilsin onsuz şəhər sənin üçün zindandır. Üstəlik, nəyi gizlətmək istəyirsən? Bilmirsən ki, artıq çoxları bilir? Görmürsən sənin az danışdığını görən atan belə anlayıb. Universitetin işçilərini görmürsənki uzun saçları ilə belə əngəl yaradaraq, maneə törədirlər. Ananı görmürsən, sənin arıqlamandan və sifətinin sarılığından nigarandır. Bacının mənalı gülüşlərini görmürsənmi? Yox mənim dostum, "Sənin eşqin gizli qalan söz söhbət deyil". Bekonun sözünə diqqət et: "Özünü dənizlərə, dalğalara vur. Ruhunu boşalt". Qoy yağış heç bir maneəsiz, vasitəsiz və pərdəsiz sənin üzərinə yağsın. Bilinməyən sonluğu düşünmə. Başladığın işi yarımçıq qoyma və bitir. Kim bilir bəlkə, Allahın mərhəməti sənə tuş gələcək. Bir-birinizlə xoşbəxt olacaqsız. Həm o səni, həm də sən onu ömrünüzün sonunadək sevəcəksiz. Bəlkə də ən xoşagəlməz anlar sənə üz gətirəcək, bəlkə eşqin nakam və acısı bitəcək və o, oturduğu zirvə-

dən aşağı enməyəcək, vüsala qol qoymayacaq və bu eşq nifrətlə bitəcək. Bəlkə də bu eşq heç vaxt nifrətə çevrilməyəcək. Sənin üçün müqəddəs bir eşq olaraq qalacaq. Əlbəttə, hər anın öz hökmü var. Bir an sonranı belə bilmək olmur.

Sinifdə baş verən o məlum hadisədən bir həftə sonra unudulmaz bir gündə, saf və aydın bir bahar gününün ikinci yarısında, gilas şükufələrinin ətri və qoxusu ətrafı bürümüşdü. Sanki eşq öz mavi üzünü səmada göstərirdi, Universitetin kitabxanasına tərəf gedərkən birdən onu gördüm, bir az fasilə ilə qarşımda kitabxanaya tərəf irəliləyirdi. Ona yaxınlaşdıqca addımlarını daha da asta götürürdü. Yaxınlaşmaq üzrəydim ki, birdən arxaya çevrildi. Məni görcək təbəssüm etdi. Adımla məni çağırdı və dedi: "Sizsiz cənab! Bu gün sinifdə niyə danışmadız?" Səsi titrəyirdi. Həyəcanlı və nigaran idi. Amma naşı bir formada vəziyyəti adi göstərmək istəyirdi. Mən inamsızlıqla hiss etdim ki, o da mənim kimi sevib, sevilməyə möhtacdır. Bir neçə tufanlı və dalğalı aydan sonra, ilk dəfə idi ki, artıq rahatlıq və asudəlik hissi keçirirdim. Sanki, qorxunc və dəhşətli göy gurultusu və şimşəklərdən sonra aprel yağışı idi, mənə yağırdı. Elə bil səma da dalbadal üz verən yağışlardan, boranlardan və qara buludlardan sonra ilk dəfə açılmışdı. O dəhşətli sükut buzu ərimişdi. Yalnız bundan sonra təkliyin və sükutun daşını ata bildim. Özümü dünyanın ən xoşbəxt adamı sayırdım. Düzdür, xoşbəxtliyə nail olmaq asan, onu əldə saxlamaq isə çətindir deyiblər. Olsun! Mən elə buna da razı idim. Axı "dama-dama göl, axa-axa sel olar" deyiblər.

O gün bir iki saat Universitetin ətraf küçələrində söhbətləşərək yanaşı gəzdik. Onunla xudahafizləşdikdən sonra bütün yolu evədək qaçdım. Mənim həyatıma ümid və həyəcan yol tapmış idi. Mənim həyatımın mənasız və qəmli dövrü sona çatmışdı. Ətrafı yamyaşıl ağaclar və çiçəklər olan asfalt üstündə qaçırdım və Bayəzid Bəstaminin halını hiss edirdim ki, deyirdi: "Səhraya getdim, eşq yağmış idi, yer nəm idi, ayaq qarda aşağı gedən kimi, eşqə batırdı". Qaçırdım və dahi Nizamini xatırlayırdım ki, niyə məni görmür, daha heç bir şeydən vahiməm yox-

dur. Ürəyim hay-küy qoparmaq, qışqırmaq, səs-səda salmaq, uca səslə oxumaq, oynamaq istəyirdi. Qışqıraraq hamıya demək istəyirdim, həyatım dəyişib, mən daha qabaqkı adam deyiləm. Mən artıq çarəsiz və kasıb deyiləm, əksinə, mən yer üzünün ən xoşbəxt və ən şad adamıyam. Mən eşq dövlətinin padişahıyam. Evə çatanda düz otağıma getdim. Qapını arxadan bağladım. Bu halda öz təkliyimdən zövq alaraq təsvir olunmaz bir şövqlə M.Füzulinin şerini zümzümə edirdim:

Məndə Məcnundan füzun aşiqlik istedadı var,
Aşiqi sadiq mənəm, Məcnunun yalnız adı var.
Nola qan tökməkdə mahir olsa çeşmim mərdümü,
Nütfeyi-qabildürür, qəmzə kimi ustadı var.
Qıl təfağür kim, sənin həm var mənim tək aşiqin,
Leylinin Məcnunu, Şirinin əgər Fərhadı var.
Əhli-təmkinəm məni bənzətmə ey gül bülbülə,
Dərdə yox səbri onun, hər ləhzə min fəryadı var.
Öylə bədhaləm ki, əhvalım görəndə şad olur,
Hər kimin kim, dövr cövründən dili naşadı var.
Gəzmə, ey könlüm quşu, qafil fəzayi eşqdə,
Kim, bu səhranın güzərgəhlərdə çox səyyadı var.
Ey Füzuli, eşq mənin qılma nasehdən qəbul,
Əql tədbiridir ol, sanma ki, bir bünyadı var.



View publication stats